**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 8 dekabr tarixli 103 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları”nın təsdiq edilməsi haqqında” 2017-ci il 9 sentyabr tarixli 86 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2021-ci il 3 may tarixli 115 nömrəli, “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” 2022-ci il 4 avqust tarixli 161 nömrəli, “Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun aparılması haqqında” 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 27 may tarixli 48 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə**

**Sertifikatın Forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 27 may tarixli 49 nömrəli, "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə elanının Forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 18 dekabr tarixli 140 nömrəli, "Naxçıvan Muxtar Respublikasının 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrinin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi haqqında" 2018-ci il 11 yanvar tarixli 4 nömrəli, "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil, məktəbəqədər təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 14 aprel tarixli 61 nömrəli, "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 8 may tarixli 60 nömrəli, "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 20 iyun tarixli 80 nömrəli, "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 iyun tarixli 95 nömrəli, "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 19 iyun tarixli 110 nömrəli, "Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 6 oktyabr tarixli 173 nömrəli, "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin işçilərinin maddi təminatı və sosial müdafiəsinin gücləndirilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" 2020-ci il 28 dekabr tarixli 218 nömrəli, "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 24 fevral tarixli 49 nömrəli, "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə işə qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 6 aprel tarixli 85 nömrəli, "Repetitor fəaliyyətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 10 sentyabr tarixli 190 nömrəli, "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən ödənişli xidmətlərin qiymətləri"nin təsdiq edilməsi haqqında" 2022-ci il 29 mart tarixli 75 nömrəli, "Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidmətinə işə qəbul Qaydaları"nın təsdiq**

**edilməsi haqqında" 2022-ci il 6 sentyabr tarixli 175 nömrəli, "Naxçıvan Muxtar Respublikasında aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 25 oktyabr tarixli 206 nömrəli qərarlarının ləğv edilməsi barədə**

"Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 iyun tarixli 322-06/S nömrəli Sərəncamının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarlarında dəyişikliklər edilsin:

1.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 08 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 24-cü hissəsi ləğv edilsin;

1.4. "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 3 may tarixli 115 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin;

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

2.6. "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı;

2.8. "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 95 nömrəli Qərarı;

2.9. "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 110 nömrəli Qərarı;

2.10. "Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 oktyabr tarixli 173 nömrəli Qərarı;

2.12. “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 fevral tarixli 49 nömrəli Qərarı;

2.16. “Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidmətinə işə qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 sentyabr tarixli 175 nömrəli Qərarı;

2.17. “Naxçıvan Muxtar Respublikasında aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 oktyabr tarixli 206 nömrəli Qərarı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “12” dekabr 2023-cü il

№ 148